**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MARQARET ETVUD YARADICILIĞINDA FEMİNİST İDEYALAR VƏ ANTİUTOPİYA

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (Kanada ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Əsmər Cəlal qızı Əkpərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Aynur Zakir qızı Sabitova** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Nigar Vəliş qızı İsgəndərova** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Nəsir Famil oğlu Xankişiyev** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Fəxriyyə Cavanşir qızı Rəhimova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>________________ | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri:<br>________________ | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasının müstəqillik qazanması ilə dövlət prioriteti kimi izlədiyi Qərbə inteqrasiya siyasəti ölkənin təkcə siyasi, iqtisadi həyatını əhatə etməmiş, eləcə də elm-təhsil sahələrinə də sirayət etmişdir. Belə ki, ölkə rəhbəri cənab İlham Əliyevin: *"Qərbə inteqrasiya Azərbaycanın xarici siyasətinin başlıca istiqamətlərindən biridir"*[1] – bəyanatı, əslində respublikamızın bütün vacib strateji sahələr üzrə inkişaf prioritetlərini əks etdirir. Bu isə öz növbəsində, cəmiyyət fəaliyyətini təmin edən bütün sahələrdə olduğu kimi, elm-təhsildə də aydın şəkildə özünü büruzə verir. Bu mənada son illərdə Azərbaycanda Avropa və bütövlükdə Qərb mədəniyyəti, ədəbiyyatının tədqiqi işinin yeni keyfiyyət mərhələsinə qalxması da tam məntiqə müvafiq görünür. Əgər nəzərə alsaq ki, təqdim olunan dissertasiya işində yaradıcılığının bir sıra aspektləri sistemli şəkildə təhlil edilən Margaret Etvud müasir Qərb ədəbi düşüncəsinin aparıcı nümayəndələrindən biri sayılır, bu kontekstdə, yəni Qərb düşüncə modelinin öyrənilməsi baxımından yazarın ədəbi fəaliyyətinin vacib məqamlarının tədqiqi – bilavasitə müasir Qərb cəmiyyətini narahat edən məsələlərlə səsləşən məqamlarının tədqiqi, sözsüz ki, mühüm aktuallıq kəsb edir.

Dissertasiya mövzusunun aktuallığını şərtləndirən ən vacib məqamlardan biri yazıcının – təkcə müasir Kanada ingilisdilli ədəbiyyatının deyil, dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindən sayılan Marqaret Etvudun yaradıcı şəxsiyyətinin böyüklüyü kontekstində onun Qərb cəmiyyətinin, xüsusilə müasir feminizm hərəkatının yönləndirilməsi baxımından oynadığı mühüm rolla bağlıdır. Belə ki, M.Etvud "sənət – sənət naminə" – klişesindən kifayət qədər uzaq olmağı bacaran, öz sözünün gücü ilə (geniş anlamda həm yaradıcılığı, həm də vətəndaş mövqeyi ilə) nəinki ədəbi düşüncəni, eləcə də bütövlükdə cəmiyyətin inkişaf prioritetlərini yönləndirə bilən nəhəng istedad və yaradıcı fəhmə malikdir. Əsərlərində cəmiyyətdə baş verən proseslərin "nəbzini tutmağı"

[1] Prezident: Qərbə inteqrasiya Azərbaycanın xarici siyasətinin başlıca istiqamətlərindən biridir. https://az.trend.az/azerbaijan/politics/832342.html

bacaran bir yazar kimi M.Etvudun yaradıcılığının tədqiqi, ümumilikdə, Qərb cəmiyyətinin nə ilə “nəfəs aldığını”, onu nələrin narahat etdiyini müəyyənləşdirmək baxımından da mühüm aktuallıq kəsb edir.

M.Etvud yaradıcılığının tədqiqinin aktuallığını şərtləndirən digər vacib məqam bilavasitə onun antiutopiyalarında yaxın gələcəyin konturlarını cızan proses və hadisələrin təsvir olunması və onların zamanla gerçəkliyə çevrilməsilə bağlıdır. Bu mənada “Antiutopiyanın peyğəmbəri”[2] (The Prophet of Dystopia) adlandırılan M.Etvudun yaradıcılığındakı öngörücülük faktlarının real cəmiyyət həyatı ilə səsləşməsi məqamlarının təhlili də işə əlavə aktuallıq qazandırır.

Dissertasiya işinin tədqiqat obyektini təşkil edən digər vacib məqamın – M.Etvud yaradıcılığında feminizm ideyalarının tədqiqi işin aktuallığını şərtləndirən cəhətlər sırasında yazıçının bir çox romanlarında qaldırdığı problemlərin – abort yasağı, qadınlara qarşı gender ayrı-seçkiliyinin tam obyektivliklə işıqlandırılması (“Üzə çıxma”, “Pişik gözü”) və qadınların əks cinsin tələbatlarının ödənilməsi vasitəsi kimi görülməsinə (“Qulluqçunun hekayəsi”) qəti şəkildə etiraz edilməsilə bağlıdır. Məlumdur ki, M.Etvud ən gənc yaşlarından, demək olar ki, bütün anlaqlı həyatı boyu qadın hüquqlarının müdafiəçisi kimi çıxış etmişdir. Asi ruhlu bir qadının övladı olaraq, M.Etvuddan başqa bir davranış modelini gözləmək də yanlışlıq olardı. Bununla belə, M.Etvud özünü sırf feminist yazar kimi səciyyələndirməkdən, hətta feminist yarlıqından istifadə etməyə tərəddüdlə yanaşır (“Feministəmmi, bilmirəm”). Feminist ədəbiyyatının klassiki sayılan müəllifin dilindən belə bir etiraf, təbii ki, tədqiqatçılarda müəyyən təəccüb doğurmaya bilməzdi[3]. Lakin burada vacib olan məqam ondan ibarətdir ki, ruhən azad olan M.Etvud heç bir bölgüyə, qruplaşdırmaya sığmır. Onun yaradıcı fəhmi belə bir şərtiliklərlə məhdudlaşmayacaq qədər müstəqil, bölgülərə sığdırılmayacaq qədər nəhəngdir. Digər tərəfdən, prinsip etibarilə M.Etvud yarlıqlar asılmasının əleyhinədir və bütün yaradıcılığı boyu insanın seçim azadlığı və müstəqilliyini tərənnüm

---

[2] Mead, R. Margaret Atwood, the Prophet of Dystopia // The New Yorker, – 2017, 17 April.

[3] Khaleeli, H. Martha Gill and Hazelann Williams. Are you a feminist? // The Guardian, – 2009, 9 September.

edən bir söz adamı kimi, bir terminin "əsiri" olmağını məqbul saymır. Xatırladaq ki, M.Etvud ümumiyyətlə, istənilən növ yarlıqların cazibəsindən uzaq bir şəxsiyyət kimi formalaşmışdır. Bu mənada qadını sırf qadın olduğuna görə istənilən situasiyalarda yüzdə yüz haqlı çıxaran radikal feministlər M.Etvuddan eyni yanaşmanı gözləyəndə və gözləntiləri puça çıxanda ilk baxışdan nə dərəcədə absurd görünsə də (feminist ədəbiyyatının canlı klassikini), onu antifeminist mövqe tutması ilə ittiham edirlər. M.Etvud açıq-aydın bəyan edir ki, feminizm qadının bu və ya digər kontekst nəzərə alınmadan, istənilən halda, istənilən situasiyada apriori haqlı olması anlamına gəlmir. O, hətta öz əsərləri üçün "feminist romanlar" yarlıqından da qaçır və qeyd edir ki, bir universal termin olaraq, feminizm, ondan (feminizm terminindən – Ə.Ə.) şaxələnmiş olan digər mənalar kontekstində öz ilkin anlamını itirmişdir. Yazıçı etiraf edir ki, onun əsərləri haqqında "feminist" təyininin tətbiq edilən istənilən mükalimədə o, ilk olaraq, opponentindən bu termin altında nələri nəzərdə tutduğu ilə maraqlanır[4].

Paradoks ondadır ki, MeToo hərəkatının ən radikal tərəfdar qrupları onu kişi şovinizmi qaydalarına riayət edən estebleşmentə təslim olmaqda günahlandırdıqları halda, əks mövqe tutan, yəni kişilərin dominantlıq "imtiyaz və hüquqlarını müdafiə edənlər" isə, bunun tam tərsini iddia edirdilər. Belə ki, M.Etvudun özünün də etiraf etdiyinə görə, yaratdığı bəzi obrazlara görə opponentləri onu kişilərə nifrət edən qadın kimi canlandırırlar. Halbuki, yazıçının vurğuladığı kimi, kişilərə o deyil, onun yaratdığı bu və ya digər obraz nifrət edə bilər ("Personaj şübhəsiz ki, kişiyə nifrət edir, amma bu, o demək deyil ki, mən beləyəm")[5]. Bütün bu qeyd olunanlar M.Etvudun müasir feminist hərəkatın ideya qaynağı olmaqla yanaşı, ultrafeministlərin qınağına və hətta açıq tənə və təqibinə məruz qalan qələm ustası kimi səciyyələndirməyə əsas verir ki, yazıçının yaradıcılığının bu

---

[4] Oppenheim M. Margaret Atwood: Feminism is not about believing women are always right // Independent. https://www.independent.co.uk/arts-entertainment/books/news/margaret-atwood-handmaids-tale-author-feminism-women-not-always-right-a7847316.html

[5] Thomson, G. Every time I write a new novel I wonder what kind of trouble I'll get into: Margaret Atwood on being called offensive and man-hating // The Daily mail, – 2014, 23 August.

aspektlərinin tədqiqi də araşdırmanın aktuallığını daha da artıran cəhətlərdən hesab edilə bilər. Başqa sözlə desək, M.Etvud müasir feminist hərəkatın ideoloji simasını formalaşdırmış zəka sahiblərindən olmaqla yanaşı, istənilən növ radikallığa qarşı çıxan düşüncə adamı kimi müasir Qərb gender doktrinalarını "şəkilləndirməkdə" davam edir. Bu mənada, dissertasiya həm də ona görə aktuallıq kəsb edir ki, bu araşdırma sayəsində biz feminizm ideyalarının formalaşmasını postfaktum deyil, həmin proseslərlə bilavasitə paralel şəkildə, onların "nüvəsi"ndə tədqiq etməyə müvəffəq oluruq.

Qeyd edilməlidir ki, M.Etvud yaradıcılığının müxtəlif aspektləri müasir tədqiqatçılardan H.Blum[6], S.Byerke[7], N.Kuk[8], A.Koral[9], H.Makferson[10], C.Uisker[11], İ.Taranenko[12],Y.Jarkova[13] və başqalarının əsərlərində tədqiq olunub. Azərbaycan ədəbiyyatşünaslığında son dövrlər M.Etvud yaradıcılığı qismən müzakirə materiallarına çevrilsə də, yazıçının əsərləri sistemli şəkildə ilk dəfə araşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Marqaret Etvudun çoxşaxəli yaradıcılığı təqdim edilən araşdırmanın əsas tədqiqat obyektini təşkil etdiyi halda, onun yaradıcılığındakı antiutopiya mahiyyətli əsərlərin janr özünəməxsusluqları və müəllifin feminist ideyalarının həmin kontekstdə ifadə tapması və eləcə də bütövlükdə, müəllifin çoxşaxəli

---

[6] Bloom, H. Margaret Atwood. / H.Bloom. – Yale University, – 2009. – 204 p.

[7] Bjerke, S. Reviewing Margaret Atwood Gendered Criticism in American Book Reviews. / S.Bjerke. – Oslo: The University of Oslo, – 2008. – 94 p.

[8] Cooke, N. Margaret Atwood: A Critical Companion. / N.Cooke. – Greenwood, – 2004. – 192 p.

[9] Coral, A. Howells. Margaret Atwood. / A.Coral. – Publisher: Palgrave, – 2005. – 224 p.

[10] Macpherson, H.S. The Cambridge Introduction to Margaret Atwood. Chapter 1, / H.S.Macpherson. – Cambridge: Cambridge University Press; – 1 edition, – 2010. – 158 p.

[11] Wisker, G. Margaret Atwood: An Introduction to Critical Views of Her Fiction. / G.Wisker. – Publisher: Palgrave, – 2011. – 248 p.

[12] Тараненко, И.В. Лексическое представление социокультурного пространства в жанре антиутопии: /дисс.канд.филолог.наук/ – Санкт-Петербург, 2001. – 206 с.

[13] Жаркова, Е. П. Антиутопии М.Этвуд «Рассказ служанки» и «Трилогия безумного Аддама» в контексте традиции и новейших тенденций в развитии жанра: /Автореферат дисс. канд. филолог. наук/ – Воронеж, 2017. – 24 с.

yaradıcılığı boyunca feminist dünyagörüşünün bədii formada inikas özəllikləri araşdırmanın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas *məqsədi* dünya ədəbiyyatının görkəmli nümayəndələrindən sayılan Marqaret Etvudun yaradıcılığında feminist ideyalarının inikas özəlliklərini və bu ideyaların müəllifin bütün yaradıcılığı boyunca və xüsusilə də, antiutopiya janrlı əsərləri kontekstində ifadəsi özünəməxsusluqlarını araşdırmaqdan ibarətdir. Bu məqsədin gerçəkləşdirilməsi üçün tədqiqat işində aşağıdakı *vəzifələrin* yerinə yetirilməsi müəyyənləşdirilmişdir:

– M.Etvudun yaradıcı şəxsiyyətinin formalaşma mərhələsini və feminizm ideyalarının əsas konturlarının ümumiləşdirmək;

– M.Etvudun uşaqlığını onun yaradıcı gələcəyini müəyyənləşdirən faktor kimi dəyərləndirmək;

– M.Etvudun yaradıcılıq yoluna "işıq salmış" dühaları təyin etmək;

– "Ləqəbi Qreys" romanını feminizmin problemləri müstəvisində təhlil etmək;

– M.Etvud yaradıcılığında antiutopiya janrının spesifikliyinə aydınlıq gətirmək;

– "Oriks və Kreyk", "Daşqın ili" və "Madd Adam" romanlarında gen mühəndisliyi və süni seleksiya ideyalarının utopiyadan antiutopiyaya keçid kimi dəyərləndirmək;

– M.Etvudun romanlarında feminizmin və antiutopiyanın inikası xüsusiyyətlərini ümumiləşdirmək;

– "Qulluqçunun hekayəsi" antiutopiyası feminizm və utopiya manifestinin anti-simvolu kimi dəyərləndirmək;

– "Kor sui-qəsdçi" romanında qadın obrazlarını sosial-stereotiplərin qurbanı kimi araşdırmaq və təhlil etmək.

**Tədqiqat metodları.** Tədqiqatın mənbələrini M.Etvudun çoxşaxəli yaradıcılığı, konkret olaraq, antiutopiya janrında qələmə aldığı silsilə romanları, habelə feminizm ideyalarını əks etdirən digər roman və şeir yaradıcılığı nümunələri təşkil edir. Aparılan araşdırmanın metodlarına gəlincə, dissertasiya işi üzərində tədqiqatlar əsasında müqayisəli-tarixi, tipoloji və analitik metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Tədqiqat işi üzərində aparılan sistemli araşdırmalar aşağıdakı müddəaların müdafiəyə çıxarılmasına imkan vermişdir:

– M.Etvudun yaradıcı kimliyinin formalaşmasında onun ailəsinin, yaxın çevrəsinin, uşaqlıq və gənclik illərini keçirdiyi bölgənin müstəsna rolu nəzərdən qaçmır və yazar bir çox əsərlərində (məsələn, "Pişik gözü", "Üzə çıxma" və s.) tərcümeyi-halının bu və ya digər detallarını eksplisit və ya implisit şəkildə əks edir.

– M.Etvud "Pişik gözü" romanında etirafından qaçdığı uşaqlıq travmalarını qələmə almaqla bərabər, qadınların cəmiyyət şərtilikləri çərçivəsində müstəqillik qazanması, öz kimliyinə qovuşması məsələlərini geniş şəkildə önə çəkir.

– M.Etvudun antiutopiya janrına üstünlük verməklə bərabər burada öz "cığırını" salmağa müvəffəq olması, habelə öz feminist ideyalarını ədəbi qəlibə sala bilməsində bir çox sələflərinin (Coys Bərkhaus, Corc Oruell, Susanna Mudi və b.) və müasirlərinin (Cek Keruak, Silviya Plat, Ancela Karter və b.) müstəsna rolu və təsiri aşkar edilir.

– "Üzə çıxma" romanında müəllif identiklik problemini davam etdirir və bu məsələni qadın kimliyinin özünə qovuşması problemi kontekstində dəyərləndirir. Müəllif bu romanda ilk dəfə olaraq, qadınların "qurban" olmağa meylliliyinin köklərinə baş vurur, "qurban olmaqdan qaçış" məqamını qaldırır.

– M.Etvud "Ləqəbi Qreys" tarixi fantastika janrlı romanında qadınların qurban olmaqdan qaçışı probleminə bir daha toxunur, baş qəhrəmanı Qreys Marksın dili ilə qadın zəifliyinə, acizliyinə öz etirazını bildirir. Qatil olması şübhələrilə həbs olunan və uzun illər boyu məhkum həyatı yaşayan qadının həyat tarixçəsini danışan yazıçı roman boyu onu bu duruma gətirən, onun psixoloji vəziyyətində ikiləşməyə yol açan situasiyanı, yəni qadınlara qarşı amansız ayrı-seçkiliyi tam obyektivliklə ifşa edir.

– M.Etvud antiutopiya janrının dövrümüzdəki ən parlaq nümayəndələrindən biri kimi, bu janrın imkanlarından bəşəriyyəti gözləyən ekoloji fəlakət və sosial kataklizmlərin xəbərdarlığı üçün ən yüksək ustalıqla yararlanır və bu təkrarsız ustalığına görə, ona verilən "Antiutopiyanın peyğəmbəri" statusunun tam haqqını ödəyir.

– M.Etvudun “Oriks və Kreyk” antiutopiyasında bəşəriyyətin pozulmuş balansının süni şəkildə bərpasının, kainatın təbii inkişafına müdaxilənin ağır fəsadlara yol aça biləcəyinin xəbərdarlığını edir. Müəllif istənilən süni müdaxilənin ilk növbədə, onu icra etmiş insanlara qarşı yönəlmiş “bumeranq effektli” qorxulu silah olduğunu ortaya qoyur.

– M.Etvud “Daşqın ili” antiutopiyasında insanlığın “saflaşdırılmasını” hədəf alan gen mühəndisliyinin əslində əbəs olduğunu ortaya qoyur. Müəllif xeyir və şərin mübarizəsinin əbədi və vazkeçilməz olduğunu, real seleksiyanın məhz həmin mübarizənin nəticəsi kimi ortaya çıxdığını nümayiş etdirir: süni ideallaşma özlüyündə utopiyadır və bu utopiya öz nüvəsində antiutopiyaya kodlanır.

– M.Etvud “MaddAdam” antiutopiyasında ideallıq arayışının yanlışlığını ortaya qoyur, süni seleksiyanın nəticəsində “arınmış” gen daşıyıcılarının insanlığın “ən yüksək” və “steril” səviyyəsini təcəssüm etdirmədiyini göstərir.

– M.Etvudun “Qulluqçunun hekayəsi” romanında qadınların kimliksizləşdirilməsi, onların sosial-psixoloji identiklikdən məhrum edilməsi ifşa edilir; prosesin mahiyyət və xronologiyası izlənilir; bu fakt gender bərabərsizliyinin (asimmetriyasının) ilkin və həlledici manipulyativ aləti kimi səciyyələnir.

– Yazıçı “Qulluqçunun hekayəsi” antiutopiyasında totalitar cəmiyyətin özündə daşıdığı ən böyük təhlükələrdən birinin, məhz qadın hüquqlarının əlindən alınmasının xəbərdarlığını verir; antiutopiya janrının qaydalarına uyğun olaraq, öngörüşlərini neqativ-sarkastik qiymətləndirilmə vasitəsilə açıqlayır.

– Romanda müəllif totalitar cəmiyyətin idarə edilməsindəki ən güclü manipulyasiya alətinin din olduğunun açıqlayır; özlərini mömin dindarlar kimi qələmə verən qiyamçıların əslində, fundamental mahiyyətləri ilə dindən insanlığa qarşı manipulyativ idarəetmə vasitəsi kimi istifadə etdiyini tam əyaniliklə ortaya qoyur.

– M.Etvudun “Kor sui-qəsdçi” romanında qadın sosial stereotiplərin qurbanı kimi təsvir edilir. Seçim hüququ əlindən alınmış qadın sosial şərtiliklərin məhkum etdiyi “həyat imitasiyası”nı sürdürmək məcburiyyətində qalır.

– “Kor sui-qəsdçi” romanının baş qəhrəmanı qadınların lüzumsuz fədakarlıqlarının əslində, real mübarizədən qaçış kimi ifşa edir; M.Etvud “qurban olma”nın həyatın özü ilə “cəzalandırılma” kimi İlahi Ədalət mexanizminin qaçılmazlığını ortaya qoyur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyini birinci növbədə, dissertasiya işində Marqaret Etvud yaradıcılığının, Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq, sistemli təhlil obyekti təşkil etməsi faktı şərtləndirir. Digər tərəfdən dissertasiya araşdırmasının elmi yeniliyini nəinki Azərbaycanda, eləcə də dünya ədəbiyyatşünaslığında (konkret olaraq, belə demək olarsa, dünya “etvudşünalığında”) ilk dəfə olaraq, yazıçının feminist ideyalarının onun antiutopiya janrı müstəvisindəki fəaliyyəti kontekstində sistemli araşdırılması faktı təşkil edir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyətini ilk növbədə, Azərbaycan ədəbiyyatşünaslığında müasir dünya ədəbiyyatının aparıcı nümayəndələrindən biri olan M.Etvudun yaradıcılığının ilk dəfə olaraq, sistemli təhlilə məruz qalması faktı şərtləndirir. Azərbaycan ədəbiyyatşünaslığında yetərincə dolğun araşdırma “etirafını” qazanmamış bu nəhəng yazıçının yaradıcılığına dissertasiya formasında müraciət və onun yaradıcılığının məhz feminist aspektlərinin ön plana çıxarılması tədqiqatın nəzəri əhəmiyyətini əsaslandırır. M.Etvud yaradıcılığında antiutopiya janrının ifadə formasının sistemli təhlili, istər müəllifin bədii irsinin öyrənilməsi baxımından, istərsə də müasir dünya ədəbiyyatında antiutopiya janrının təkamül özəllikləri və istiqamətlərini tədqiq etmək baxımından mühüm nəzəri əhəmiyyətə malikdir. Dissertasiya işi Azərbaycanda M.Etvud yaradıcılığının sistemli təhlilini hədəf alan ilk əsər kimi, müəllifin çoxşaxəli bədii irsinin tədqiqini əhatə edə biləcək növbəti nəsil araşdırmalar üçün faydalı nəzəri mənbə rolunu oynaya bilər və yeni nəsil tədqiqatçıların araşdırmaları üçün etvudşünaslıq sahəsində ilkin forma kimi əhəmiyyət kəsb edə bilər.

Tədqiqat işinin praktik əhəmiyyətinə gəlincə, dissertasiya üzərində iş əsnasında əldə edilən elmi nəticə və ümumiləşdirmələr “Kanada ədəbiyyatı tarixi”, “Müasir dünya ədəbiyyatı”, “Müasir dünya qadın yazarları”, “Feminist ədəbiyyat” və s. bu kimi əsas və seçmə fənlərin tədrisi işində, eləcə də magistratura pilləsində tədris

edilən əlaqəli fənlərin tədrisində istifadəyə cəlb oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları, tədqiqat əsnasında əldə edilən elmi nəticələr əsasında Beynəlxalq və Respublika miqyaslı konfranslarda məruzələr edilmişdir. Yerli və xarici mətbuat orqanlarında Marqaret Etvud yaradıcılığında feminist ideyalar və antiutopiya probleminə dair elmi məqalələrlə çıxış edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, hər biri bir neçə paraqrafdan ibarət olmaqla üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 8 səhifə, 15 214 işarə, I fəsil 36 səhifə, 70 316 işarə, II fəsil 28 səhifə, 53 992 işarə, III fəsil 39 səhifə, 74 465 işarə, Nəticə hissəsi 4 səhifə, 7 924 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 221 911 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, araşdırmanın aprobasiyası və quruluşu haqqında elmi məlumat diqqətə çatdırılır.

Dissertasiyanın **"Marqaret Etvudun yaradıcı şəxsiyyətinin formalaşma mərhələsi və feminizm ideyalarının genezisinə dair"** adı ilə təqdim edilən I fəsli üç paraqrafdan ibarətdir. ***"Feminist ideyaları fonunda "gizlədilən" uşaqlıq travmaları özünə dönüş kimi"*** adlı birinci paraqrafda qeyd edilir ki, M.Etvudun həyatını və keçdiyi ömür yolunun yaradıcılığına təsirini izləyən bir çox araşdırmaların mövcud olmasına rəğmən, H.S.Makfersonun[14] qeyd

[14] Macpherson, H.S. The Cambridge Introduction to Margaret Atwood. Chapter 1, / H.S.Macpherson. – Cambridge: Cambridge University Press, – 1st edition, – 2010. – 158 p.

etdiyinə görə, onların demək olar ki, heç biri yazıçının həyatını tam dolğunluğu ilə əks etdirməyə müvəffəq olmamışdır. Bununla belə, ayrı-ayrı mənbələrdən toplanıla bilən ümumi məlumatlar fonunda yazıçının yaradıcı kimliyinin formalaşmasında müstəsna rol oynamış həyat yolunun izlənilməsi mümkün olur.

M.Etvudun atası Toronto Universitetinin professoru olmuş Karl Edmund Etvud Kanadanın təbiətinin qorunması yönündə fəaliyyət göstərən cəmiyyətin üzvü, ekoloji hərəkatda aktiv mövqeyi olan vətəndaş-ziyalı idi. Onun otuz altı illik həyat yoldaşı olan görkəmli Kanada yazıçısı Qrem Gibson nadir quşların qorunmasını hədəf alan "Birdlife International – Rare Bird Club" beynəlxalq ekoloji təşkilatına rəhbərlik edir[15]. Anası haqqında 2007-ci ildə qələmə aldığı yazıda M.Etvudun özünün də qeyd etdiyi kimi, onun bir yaradıcı şəxsiyyət, qadın hüquqları müdafiəçisi, təbiətsevər şəxs kimi formalaşmasında anası Marqaret Doroti Killam Etvudun mühüm rolu olmuşdur. Çəkinmədən mübarizə aparmaq xüsusiyyətini M.Etvud asi ruhlu anasından əxz etmişdir. Məhz bu məqam M.Etvudun yaradıcı kimliyində müstəsna rol oynamış və onun ekoloji görüşlərinin formalaşmasında, təbiətin qorunması ilə bağlı prinsipial vətəndaş mövqeyinin ortaya qoyulmasında müstəsna rol oynamışdır.

M.Etvudun "Pişik gözü" romanında əsərin qəhrəmanı Eleynin həyat hekayəsi fonunda böyük həyata, yeni mühitə uyğunlaşması, özünün qadın kimliyinin, qadın başlanğıcının tapması və onunla (həmin başlanğıcla) barışa gedən çətin yoldan bəhs edir. Xatırladaq ki, M.Etvudun on iki yaşı olana kimi onların ailəsi də iki uşaqlı idi. Əsərin baş qəhrəmanı olan Eleyn, eynilə M.Etvudun öz uşaqlığında olduğu kimi, qardaşı Stiven və valideynlərilə şəhər mühitindən uzaqda yaşayır. Öz yaşıdları ilə sıx təmasdan məhrum olan Eleyn münasibət qurmaq çətinliyi, özünü ifadə çətinliyi yaşayır. M.Etvudun "Pişik gözü" romanında təsvir olunmuş hadisələrin yazıçının həyatında yaşanmış mənəvi sarsıntıların inikası olması fikrini əsaslandırır. Əslində Eleynin kənar aləmlə və eləcə də öz daxili

---

[15] Jackson-Houlston C.M. Margaret Atwood woos and wows scientists at ornithological congress in Vancouver // Vancouver Courier, https://www.vancourier.com/news/margaret-atwood-woos-and-wows-scientists-at-ornithological-congress-in-vancouver-1.23408926

komplekslərilə mübarizəsi öz identikliyinin tapılmasına hədəflənmiş mübarizənin tərkib hissəsidir. Müəllif qadın identikliyinin nüvəsinin ən erkən uşaqlıq çağlarında qoyulduğunu vurğulayır. Eleynin femin xüsusiyyətləri daha qabarıq olan həmyaşıdları qarşısında çarəsiz, bacarıqsız duruma düşməsinə diqqət çəkən M.Etvud, yaranan uşaqlıq travmalarının böyük əksəriyyətinin cəmiyyətdən kənarda həyat sürməsi, ağrılı uyğunlaşma keçmək məcburiyyətində qalması ilə əlaqələndirir. Bu isə öz növbəsində, yazıçının öz həyat hekayəsini, daxili qorxu və sarsıntılarını, ümid və arzularını qələmə alması ilə bağlı qəlibləşmiş fikirləri əyani şəkildə təsdiqləyir.

Etvudla bağlı bioqrafik məlumatlarla tanışlıq onun yaradıcı kimliyinin formalaşmasını şərtləndirən bir çox amillərə işıq salmağa, o cümlədən onun yazıçı kimi formalaşmasında birbaşa (yəni mütaliə əsnasında) rol oynamış şəxslərin kimliyini müəyyənləşdirməyə imkan verir. M.Etvudun yazıçılığa həvəslənməsində onun xalası Coys Bərkhausun uşaq yazarı olması faktı da az rol oynamamışdır. Yaradıcı şəxsiyyətin rüşeymləri uşaqlıq çağlarından formalaşdığından, istənilən yaradıcı şəxs kimi M.Etvudun da nə yaradacağı və hansı üslub və janrda yaradacağı məhz, erkən mərhələdə, fərdin ilkin zövq və prioritetlərinin formalaşma mərhələsində bəlli olduğu danılmazdır. M.Etvud yaradıcılığına təsir etmiş müəlliflər sırasında Susanna Mudi adlı ingilis əsilli Kanada yazıçısının da adını çəkmək lazımdır. Yazıçı "Ləqəbi Qreys" romanında ilk dəfə S.Mudinin müəllifi olduğu "Life in the Clearings Versus the Bush" romanında təsvir olunmuş real tarixi hadisələri fərqli müəllif interpretasiyasında təqdim etmişdir.

***"M.Etvudun təzadlı kimliyi Kanada identikliyi kontekstində və ya qadın mübarizliyinin arxitektonikası"*** adlanan növbəti paraqrafda qeyd edilir ki, M.Etvudun dünyaya göz açdığı Ontario bölgəsi ingilisdilli əhalinin üstünlük təşkil etməsilə seçilsə də, atasının təbiət qoynunda aparılan təcrübə və müşahidələrinin obyektiv zərurətilə Etvudlar ailəsinin uzun illər yaşamış olduqları bölgə Kanadanın fransızdilli əyalətlərində qərar tuturdu. İki mədəniyyətin ciddi qarşıdurması və bu qarşıdurmanın səngidilməsi üçün müvafiq siyasi tədbirlərin görülməməsi ("Susanna Mudinin jurnalları" yazıldığı dövrdə hələ həmin tədbirlər gerçəkləşməmişdir) Kvebek əyalətini, bir növ, hər an partlaya bilən barıt çəlləyinə

çevirmişdir. Baş qəhrəman öz xatirələrindəki Kvebekdə, eləcə də təkrarən qayıtdıqdan sonrakı Kvebekdə fransızdilli olmamağının bir qədər məhrumiyyətli vəziyyət yaratmasına diqqət çəkir. Yazıçı bununla belə, ABŞ identikliyi ilə Kanada identikliyi arasındakı fərqlə bağlı yanaşmasında israrlılığını davam etdirir. Ona görə ABŞ identikliyinə böyük və qüdrətlilikdən doğan özünəvurğunluq xas olduğu kimi, Kanada identikliyinə, o cümlədən ölkə qadınlarının ruh halına ikiləşmə, daxili çəkişmə xasdır. Susanna Mudi M.Etvudun öz sözləri ilə desək, "*nəhayət ki, öz daxili aləmini ortaya qoymaqla öncələr nifrət etdiyi torpağın ruhuna çevrilir*"[16]. Buna görə əsər bilavasitə Kanada milli kimliyi, Kanada milliyyətçiliyinin ideoloji nüvəsinin müəyyənləşdirilməsinə həsr olunmuşdur.

M.Etvudun "Üzə çıxma" romanında Kanada reallıqlarının təsvir olunmasından bəhs edilir. Üç hissədən ibarət olan və iki həftə ərzində cərəyan edən hadisələri əks etdirən əsərdəki hadisələrin tutumu, onların baş qəhrəmanın daxili metamorfozlarında oynadıqları rol bu zaman limitinin nisbiliyini təsbit etməyə imkan verir. Səyahətə bir daxili aləm və mənəvi yüklə çıxmış baş qəhrəman iki həftəlik səyahətin sonunda yeni "mən"ini əldə edir, əslində müəyyən şərtlər daxilində itirmiş olduğu "mən"inə qovuşur. Baş qəhrəmanın anası xərçəng xəstəliyindən vəfat etmişdir. Atası isə itkin düşmüşdür. Məhz, itkin düşmüş atanın tapılması səyahətin ilkin qayəsini təşkil edir. Lakin itkin ata obrazı, burada sanki itkin "mən", itkin identiklik axtarışının simvolu kimi də ortaya çıxır. Baş qəhrəmanı da həyata yeni güclə, əsərin əvvəlində hələ mövcudluğuna inanmadığı daxili gücünü işə salmaqla yeni mərhələyə qədəm qoyması ilə nəticələnir. Kanadaya geri dönüş, uşaqlıq illərinə baş vurmaq, sanki onun itirilmiş nəsil bağlarını və deməli, daxili güc qaynağını bərpa edir. Əsər qadın identikliyinin arayışı manifestinə çevrilir. Bu mənada, demək olar ki, M.Etvud təkcə feminist yazıçı deyil, qadın problemlərinin dilmancı, qadın haqlarının müdafiəçisidir.

***"Alçaldılmış qadının daxili aqressiyası və ya köhnə tarixçənin yeni hekayəsi: "Ləqəbi Qreys" romanı"*** adlı paraqrafda qadının keçdiyi çətinlik və sınaqların, bəzən isə hətta iztirab və məhrumiyyət

---

[16] Bilan R.P. Margaret Atwood's "The Journals of Susanna Moodie" http://www.canadianpoetry.ca/cpjrn/vol02/bilan.htm

dolu yolların onun dünyagörüşü və dəyərlərində yol açdığı dəyişikliklərin mahiyyətindən bəhs edilir, onun psixikasında təhrik etdiyi metamorfozların anatomiyası təhlil edilir. Yazıçı alt şüurda qalan gizlinlərə "enərək" qadının ən fərqli situasiyalarda kimliyini təsbit etməsini, həmin şərtiliklərdəki davranış modelinin "açar"larını önə çəkir. M.Etvud hekayəsini dərin psixologizm əsasında quraraq mühakimə yürütmək imkanını oxucuya tanıdır. Yazıçı qadın "qurban"lığı problemini, gender asimmetriyası problemini, sosial ədalətsizliyi amansızcasına tənqid edir, lakin, heç kimə "günahkardır" və ya "günahsızdır" hökmünü oxumur. O, hər bir oxucusuna öz baxış bucağından hadisələrə nəzər salmağı təklif edir və hər kəs bir azca bu hadisələrdə özünü, yaxınlarını, öz cəmiyyət problemlərini görür. M.Etvud əsəri qadının boğulmuş, batırılmış səsinin aşkara çıxması aspektindən dəyərləndirir. M.Etvudun "başqalarının dilinə qoyulan" səslər, sözlər, nitqlər barədə dəyərləndirmə aparan Helen Devis haqlı olaraq qeyd edir ki, *"Qreyslə təmasda olan hər bir kəs əslində onun dilinə öz nitqini "qoyur", onu öz nitqi ilə "danışdırır"; Qreys də onların eşitmək istədiyini deyir"*[17].

Bu paraqrafda həmçinin M.Etvudun bir janra aidliyindən, mübtəlalığından qurtulmağa can atan multijanrlılıq tendensiyasına uyarlı davranmasını zərurət yarandıqca, bir ədəbi formadan digərinə çox asanlıqla keçid edə bilməsinin şahidi oluruq[18]. Məhz həmin uyarlı keçidlər "Ləqəbi Qreys" romanının oxunaqlılığını və təsirliyini daha da artırır. Belə ki, əsər həm nəzm, həm də nəsr formasında yazılaraq, qotik və fantastika elementlərinin zənginliyi ilə seçilir. Həm şeir parçaları, həm də nəsr formasından yararlanmaq baxımından, M.Etvud sələfi Susanna Mudinin eyni hadisələri əks etdirilən romanına "göndərmələr" edir. Belə təhkiyə prinsipi yazıçıya real hadisələri irreal təfsirdə verməyə şərait yaradır. Real tarixi personajlarla bərabər, uydurulma obrazlar yaradılması yeni, fərqli ideya-məzmunla nəticələnir.

---

[17] Gender and Ventriloquism in Victorian and Neo-Victorian Fiction: Passionate Puppets. / – Publisher: AIAA, – 2 Oct. – 2012. – 220 p.

[18] Shead, J. Margaret Atwood: Crime Fiction Writer: The Reworking of a Popular Genre. / J.Shead. – Farnham: Ashgate, – 2015. – 232 p.

M.Etvud qadının hüquq və azadlıqlarına tarixi rakursda yeni baxış təklif etmir. M.Etvud qadınların üzləşdiyi ikili standartların yaşarlığını, yəni illər, hətta əsrlər ötsə belə, dəyişməzliyini gözlər önündə sərgiləmək istəyir. Bir tərəfdən sadəlövh axmaq, digər tərəfdən isə məkrli, hiyləgər, həm qorxaq və aciz qurban, həm də soyuqqanlı, amansız qatil kimi səciyyələndirilən Qreysin necə biri olmasını müəyyənləşdirmək, sırf quru tarixi faktlara istinadən onun real psixoloji obrazını cızmaq qeyri-mümkündür. Qreys, əslində bütün bu xüsusiyyətləri özündə ehtiva edir və bu bölümdə vurğulanır ki, yükün ağırlığı on altı yaşlı gənc qızın "çiyinləri", daha dəqiq desək, psixikası üçün çox ağır olduğundan Qreysin şəxsiyyət ikiləşməsi qaçılmaz idi. Qreys doğulduğu şəraitdən, böyüdüyü mühitdən, keçdiyi ağır məşəqqətli həyat yolundan dolayı, artıq bir növ "qurban" olmağa hazır idi. M.Etvud yaradıcılığından "qırmızı xətt"lə keçən qadının seçimi, daha dəqiq desək, seçimsizliyi məsələsidir. Konkret olaraq, burada, onun digər romanlarında olduğu kimi, abort məsələsi qabardılmışdır. Burada artıq məsələnin qanun baxımından yasaqlılığı tərəfi deyil, onun toplum gözündə, elə qadının öz gözündə günah tərəfi ilə bağlı məqama diqqət yetirilir. Bu səbəbdən "Ləqəbi Qreys" romanı gender probleminin sosial aspektlərini açıqlamış əsər kimi də dəyərləndirilir.

Tədqiqat işinin **"Marqaret Etvud yaradıcılığında antiutopiya – bəşəriyyəti gözləyən fəlakətlərin xəbərdarlığı kimi"** adlanan II fəsli üç paraqrafdan ibarətdir. ***"Antiutopiyanın Peyğəmbəri" və ya yazıçının öncəgörmələrinin reallaşması: gələcək təhlükələrlə bağlı qorxu siqnalları"*** adı ilə təqdim edilən birinci paraqrafda M.Etvud müasir ingilisdilli ədəbiyyatda "Antiutopiyanın peyğəmbəri" olaraq dəyərləndirilir[19]. Belə ki, onun antiutopiya janrında yazmış olduğu əsərlərdə ("Qulluqçunun hekayəsi", "MaddAddam" trilogiyası) səsləndirilən fikirlər öz dövründə nə qədər irreal görünsə də, zamanla öz gerçək payını sübuta yetirdi. Bu mənada yazıçının antiutopiyalarını, bir növ bəşəriyyətə ünvanlanan "xəbərdarlıq" manifesti kimi dəyərləndirən tədqiqatçıların həqiqətdən heç də uzaq olmadığını söyləmək olar. M.Etvudun tarixi hadisələrin gedişatı ilə bağlı iti

[19] Mead, R. Margaret Atwood, the Prophet of Dystopia // The New Yorker, – 2017, – 17 April.

intuisiyası onun “öncəgörmələrinə” böyük reallıq payı qazandırır. M.Etvud öz əsərlərində yaxın gələcəkdə baş verə biləcək siyasi, ekoloji, iqtisadi və sosial mahiyyətli prosesləri elə ustalıqla proqnozlaşdırır ki, onun antiutopiyası o qədər də uzaq görünmür. Bu səbəbdən M.Etvud yaradıcılığı zaman və məkan limitlərinə sığmır. O, istənilən şərtiliklərin fövqündədir. Yazıçının təvazökar etirazlarına baxmayaraq, tədqiqatçılar arasında “speculative fiction” janrlı əsərlərində qəribə halda öngörücülük xüsusiyyəti olduğu etiraf edilir[20].

Daha sonra yazıçının antiutopiyasının mahiyyətini, formalaşma xronologiyasını anlamaq üçün onun təhkiyə formasının nəyə söykəndiyi, hansı narrativ birliyə istinad etdiyi açıqlanır. “Speculative fiction” təhkiyə forması təkcə bu günün problemlərinin irreal dünya modellərinin kontekstində təsviri ilə kifayətlənmir, öngörücülüyi ilə, gələcəyin proqnozlaşdırılması ilə seçilir. M.Etvud özünün müxtəlif əsərlərində dini fundamentalizmdən tutmuş qadınlara qarşı ayrı-seçkilik siyasətinin, gender diskriminasiyasının gözlənilən acı fəsadları barədə cəmiyyəti xəbərdar etməyə çalışır. Eləcə də, ciddi ekoloji prinsiplərə malik olan şəxs kimi M.Etvud dünyanı gözlənilən təhlükə ilə bağlı uydurulmuş ölkələrin dəhşətli ekoloji faciələrinin təsviri əsasında oyatmağa çalışır. Ona görə də gələcəkdə bəşəriyyəti gözləyən mənəvi, ekoloji, sosial, siyasi kataklizmlərin dəhşətli proqnozlarını sarkazmla, acı kinayə ilə ifadə edir.

Həmçinin bu paraqrafda “speculative fiction”un gerçəkləşə biləcək reallıqları əks etdirməsi, sadəcə olaraq, irreal dünyalar, irreal qəhrəman uydurmaqla kifayətlənməyib bəşəriyyət üçün “əcəl zəngi” çalan mətləblərə istinad etməsi onun bir janr kimi özünəməxsusluğunu təmin edən fakt kimi dəyərləndirilir. Məhz, bu cəhətlər və eləcə də “speculative fiction”un daha “ciddi” və ciddi olduğu qədər də kəskin satirik tərəfi, habelə onun irreal reallığı əks etdirməsi onu bir növ, elmi fantastika ilə (science fictional) müqayisədə daha əlahiddə mövqeyə qoyur. Bu paraqrafda “speculative fiction” təhkiyə formasının fərqliliyini, müstəqil janr kimi elmi fantastikadan ayrılaraq müstəqil mövcudluq hüququnu qəbul etməsi qeyd edilir, M.Etvud və Ursula K.

---

[20] Larson, J.L. Margaret Atwood and the Future of Prophecy. // Religion and Literature. Religious Themes in Contemporary North American Fiction, – 1989. Vol. 21, № 1, – p.27-61

Le Quinin bu janrla bağlı yaradıcılığı müqayisə edilir. M.Etvud qeyri-təbii, fövqəladə varlıq və nəsnələrə ehtiyac duymadan, öz irreal reallığını yaradır. Burada insanlar insan, heyvanlar heyvandır. Sadəcə olaraq, onlar uydurma dünyalarda yaşaya, gen modifikasiyasına məruz qala bilirlər. Lakin kosmik gəmilərdə səyahət edən, yeraltı dünyalarda yaşayan varlıqlar olaraq, tam reallıqdan məhrum situasiyalara aid deyillər. Məhz gen modifikasiyaları faktoru iki yazıçını "speculative fiction" və "science fiction" janrları fərqliliyində qarşı-qarşıya qoyur. M.Etvuda görə, gen mühəndisliyi problemi, bir çox halda "speculative fiction"u səciyyələndirdiyi halda, "*science fiction janrı üçün kosmos, digər qalaktikalar əsas fərqləndirici markerlər sayılır*"[21].

***"Ürək sonda gedir" romanı – antiutopiyanın yeni forması kimi"*** adlanan paraqrafda qeyd olunur ki, M.Etvudun özü romanını təsvir edərkən etiraf edirdi ki, əsər "*yaxın gələcək haqqında acı gülüşlü və dərin narahatlıq ehtiva edən roman*"dır[22], burada qanuni olanlar bloklandığı halda, qeyri-qanunilik, illeqallıq baş alıb gedir. İlk baxışdan onun qələmi çox sarkastik, ibarələri çox kəskin, bənzətmələri absurd görünə də bilər. Lakin o, məhz bədii "təsvir rəngləri"nin qatılaşdırılması yolu ilə vəziyyətin ciddiliyini insanlara çatdırmağa çalışır. Kanadalı tənqidçi H.Conun[23] qeyd etdiyi kimi, Etvudsayağı antiutopiya süjet irəlilədikcə sürrealist sərgüzəştə çevrilir, özünüaldatma və korporativ nəzarət problemlərinin ifşasını hədəf alır. Tənqidçi M.Etvudun təhkiyəsinin satirik impulslarının ön plana çıxdığını, "kobud" – təzadlı yaradıcı "kəşflər"in süjet xaotikliyi yaratdığını qeyd edir, lakin müəllifin digər antiutopik romanlarından yetərincə fərqləndiyini, qaldırılan problemlərin aktuallığının səngiməməsini də xüsusilə vurğulayır.

---

[21] Evans, C.L. Margaret Atwood and Ursula K.Le Guin debate science fiction vs. "realism": [Electronic resource]. URL: https://io9.gizmodo.com/margaret-atwood-and-ursula-k-le-guin-debate-science-fi-5650396

[22] Margaret Atwood's new novel, The Heart Goes Last, to be released in September, – 2015, March 13: [Electronic resource]. URL: https://www.cbc.ca/news/arts/margaret-atwood-s-new-novel-the-heart-goes-last-to-be-released-in-september-1.2994293

[23] John H.J. The Heart Goes Last by Margaret Atwood review – rewardingly strange // The Guardian, – 2015, – 23 September

“Ürək sonda gedir” romanında maddi durumu çox aşağı olan və bu səbəbdən maşında yaşamalı olan gənc ailə sıxıntılı durumdan qurtulmaq üçün mümkün variantları nəzərdən keçirir, hətta bu sırada avtomat oyunları vasitəsilə pul qazanmaq ehtimalını da dəyərləndirmək məcburiyyətində qalır. Belə aciz durumda olan cütlük çıxış yolu kimi, “Pozitron” layihəsinə qoşulmağa qərar verirlər. Süjet xətti irəlilədikcə dəhşətli faktlar ortaya çıxır və məlum olur ki, “Pozitron” layihəsinə cavabdehlik daşıyan şəxslər sosial nəzarəti, ilk baxışdan heç vəchlə ehtimal edilməyəcək alçaq fəaliyyətləri üçün istifadə edilir[24].

“Pozitron” layihəsi insanların düşüncələrinə hakim kəsilməyi, onların arzu və istəklərini idarə etməyi, o cümlədən qadın və kişilərin cinsəl həyatlarını tənzimləməyi hədəf alır. Əsər insan psixologiyası ilə bağlı bir çox sualların cavabını verməklə yanaşı, yeni suallar qoyur, düşündürücü məsələlər qaldırır. Amma eyni zamanda da antiutopik dünyanın nəyə qadir olduğunun xəbərdarlığını edir.

M.Etvudun əsərinin maraqlı cəhəti ondan ibarətdir ki, öz digər antiutopiyalarında olduğu kimi bu romanında da o, futurist ideyalarını yeni məlumat və proqnozları ilə əlaqələndirir. Buradakı zənginlik təkcə texnoloji yeniliklərlə məhdudlaşmır. M.Etvud yaxın gələcəyin antiutopik təsvirini gerçəkləşdirərkən elmi düşüncənin yeniliklərindən müvəffəqiyyətlə bəhrələnir. Onu da nəzərə almaq lazımdır ki, romanda təsvir edilən elmi təcrübə layihəsi (“sosial eksperiment”) məhz müvafiq sosial şəraitdə bu və ya digər fərdlərin davranış fərqliliklərinin öyrənilməsi ilə bağlıdır. M.Etvud əsər boyu bioloji kimliklə ruhi kimliyin vəhdəti və mübarizəsi məqamına diqqət yetirir. Onun digər əsərlərində olduğu kimi, bədən, sadəcə fizioloji proseslərin çərçivəsində deyil, ruhi-emosional durumun tənzimlənməsində rol oynayan faktor kimi dəyərləndirilir. M.Etvud burada müasir media-reklam texnologiyaları üçün xarakterik olan “beyinyuma” (brainwashing) əməliyyatlarını ifşa edir. İnsan təfəkkürünün manipulyasiyasını hədəf alan və kütlə psixologiyasının idarəedici rıçaqlarına xitab edərək idarəetməni gerçəkləşdirən bu

[24] Johnstone, D. The Heart Goes Last, by Margaret Atwood – book review: Travels in Dystopia, with Doris Day and Marilyn // The Independent, – 2015, 27 September.

texnologiya insanların yönləndirməsini bir növ avtomatlaşdırır. M.Etvud yaxın gələcəyin antiutopik təsvirində verbal kodlaşmaların psixoloji yönləndirmə potensialının indikindən də böyük gücə sahib olacağını proqnozlaşdırır.

***"MaddAddam" trilogiyasında gen mühəndisliyi və süni seleksiya ideyaları: utopiyadan antiutopiyaya bir addım"*** adlanan paraqrafda yazıçının yaratdığı antiutopik dünya ilk baxışdan real görünmür, lakin diqqətli oxu zamanı bizim yaşadığımız dünyanın real hadisələri fonunda başa düşülən və anlaşılandır. Digər tərəfdən müəllifin dünyanın çıxılmaz vəziyyətinin təsvirində üzüntülü bir istehzanı da görmək mümkündür. Əsərin bədii aləmi gen mühəndisliyinin gətirdiyi ağlasığmaz bəlalardan, insan ovlağının düşdüyü faciəvi sonluqdan bəhs edir. Əsərdə təsvir edilən gen mühəndisliyinin sərhədləri sonsuzdur: buraya heyvanlar üzərində mutasiya və onun nəticəsi kimi yeni canlı növlərinin əldə edilməsi, bütün canlılar üzərində təcrübələr, əbədi cavanlıq eleksirinin tapılması yolunda-saysız hesabsız təcrübələri də aid etmək olar.

"Oriks və Kreyk" antiutopiyası yer planetinin fəlakət ərəfəsində olması epizodu ilə başlayır. Epidemiyalar, terrorizm, gen mühəndisliyinin gətirdiyi hərc-mərclik bütün sosial institutları dağıdır. Məlum olur ki, inanılmaz ideyalarla alışıb yanan alim ilə dostu və sevdiyi qadın yaşadıqları cəmiyyəti, sonra isə bütün dünyanı istehlak absurduna sürükləmiş və sonda onun məhvinə gətirmişdir. Yer planetinin fəlakət ərəfəsində olması, epidemiyalar, terrorizm, gen mühəndisliyinin gətirdiyi hərc-mərclik bütün sosial institutları dağıdacaq kimi öncəgörmələrini dilə gətirir, baş verəcəkləri antiutopiyanın nəticəsi kimi göstərir.

M.Etvud "Daşqın ili" antiutopiyasında insanlığın "saflaşdırılmasını" hədəf alan gen mühəndisliyinin əslində əbəsliyini ortaya qoyur. Müəllif xeyir və şərin mübarizəsinin əbədi olduğunu, real seleksiyanın, məhz həmin mübarizənin nəticəsi kimi ortaya çıxdığını nümayiş etdirir. Əsərdən məlum olur ki, süni ideallaşma özlüyündə utopiyadır və bu utopiya öz nüvəsində antiutopiyaya kodlaşıb. "Daşqın ili" romanı "Bibliya" motivləri ilə bağlı olub, utopiya yaratmaq istəyən, lakin sonda cəmiyyəti və böyük mənada dünyanı antiutopiyaya sürükləyən insan arzularından bəhs edir.

Hadisələr qəhrəmanın istədiyi cəmiyyət modelindən "çıxıb" və özünün ən eybəcər şəklini alır. "Tanrı bağbanları" adlanan sektanın üzvləri bəşəri əxlaqsızlığın qisasını almaqdan ötrü "Susuz daşqın" planını həyata keçirir. Əsər böhrana gedən yolun fəsadlarını təsvir etməklə gen mühəndisliyinin bəşəri fəlakətlərə rəvac verəcəyi situasiyalara aydınlıq gətirir. Başqa sözlə elmin, texnikanın, tərəqqinin cahil insanların əlində dünyanın yox olmasına yol açacağının xəbərdarlığını edir. Əsərdəki epidemiya insan qırğınına səbəb olur, kütləvi ölüm gətirir, lakin eyni zamanda da insanı düşünməyə vadar edir.

"MaddAdam" antiutopiyası ideallıq arayışının yanlışlığını ortaya qoyur, süni seleksiyanın nəticəsində "arınmış" gen daşıyıcılarının insanlığın "ən yüksək" və "steril" səviyyəsini təcəssüm etdirmədiyini göstərir. Öz süni "qüsursuzluqları" ilə real həyata hazır olmayan yeni "genlilər"in "Cənnət"ə addımlaya bilməmələri, bu ideyanın özünün böyük yanlışlıq olduğunu bir daha sübut edir. Yazıçı insanın məramının nə olursa olsun, istənilən süniliyin özünün ən böyük qüsur, naqislik olduğunu üzə çıxarır. C.Kartrayt trilogiyanın bu hissəsi haqqında yazır ki, "*bu, Yer planetinin pandemiyadan və ağlagəlməz bir çox fəlakətlər nəticəsində boş qalan həyatının təsviri idi. Heç kəs bilməz ki, burada nə qədər insan sağ qalar*" [25] . Həqiqətənmi insan övladı gen mühəndisliyini davam etdirməlidir, yoxsa bu da manipulyasiya kimi davamlı deyil? Bu suallar M.Etvudu da düşündürür və bu üzdən əsər gələcəkdən baş verən fəlakətlərin xəbərdarlığı kimi səslənir.

Dissertasiyanın III fəsli **"Marqaret Etvudun romanlarında feminizmin və antiutopiyanın inikası xüsusiyyətləri"** adlanır. Bu fəsil üç paraqrafa ayrılmışdır. ***"Qulluqçunun hekayəsi" antiutopiyasında feminizm və utopiya manifestinin anti-simvolu"*** adlanan paraqrafda kişilərin idarə etdiyi qadın dünyası yazıçının qələmində antiutopiya elementlərinin təsvirində dəhşətli mənzərə alır. Yazıçı sanki utopik cəmiyyət arzulayan qadınlara antiutopiyanın baş tutacağı halda onları gözləyən dəhşətli hadisələrdən xəbərdar edir, avtoritar-totalitar cəmiyyətdə qadına qarşı təzyiqlərin misli görünməmiş şəklini çəkir. Qadına qarşı təzyiqin "ağlasığmaz"

[25] Cartwright, J. MaddAddam by Margaret Atwood – review// The Guardian, – 2013, – 8 September.

təcavüzünü təsvir edən yazıçı mənəvi-etik dəyərlərin itdiyi, sosial və siyasi xaosun mövcud olduğu dünyada bəşər nəslinin qarşılaşacağı problemlərin dəhşətindən söz açır. Bunun üçün yazıçı dünyanın siyasi, iqtisadi, mədəni və sosial həyatının radikal şəkildə dəyişməsini və sonrakı vəziyyətini təsvir edir. Qulluqçu sinfinə aid olan Qalaad dövlətindəki qadınlar sosial pillələrdə ən sonuncu yerdə qərar tuturlar. Hətta yuxarı təbəqəyə aid olan qadınlar belə, patriarxal cəmiyyətin kişilərindən pilləcə aşağıda yerləşirlər. Qulluqçular yuxarı təbəqənin qadınları üçün uşaq doğur, beləcə, onların sonsuzluğunu ört-basdır edirlər. Bir ailədə uşaq doğa bilməyən qulluqçu digər ailəyə verilir, yeni ailədə adı dəyişdirilir, yeni ağasının adıyla çağırılır. Qalaad dövlətindəki qulluqçular cinsi və fiziki zorakılığa məruz qalır, lakin buna etiraz edə bilmirlər. Etiraz dövlətə qarşı çıxmaq, sonda isə cəzalanmaq, çox vaxt isə həyatla vidalaşmaq demək idi. Elə bununla bağlı əsər qadına qarşı edilən zorakılığın ən acı nəticələrini təsvir edən antiutopik roman kimi dəyərləndirilir[26].

Daha sonra "Əhti-Ətiq"ə istinad edən dini radikalların çevriliş nəticəsində hakimiyyətə gəlməsi, müqəddəs kitabı əsas gətirərək keçmişin patriarxal cəmiyyətini yenidən qurması və ölkəni qədim dövrün adət-ənənələrinə uyğun idarə etməsindən bəhs edilir. Yeni yaranan cəmiyyət totalitar-patriarxal sistemin bariz nümunəsi kimi qeyd edilir. Belə quruluşda başqa cür düşünən insanları edam edir, cəmiyyəti qorxu altında saxlayır, sistemə qarşı çıxan hər bir kəsə cəza tətbiq edirlər. Qalaad dövlətinin qanunları xristian dininə əsaslanır və ondan kənara çıxan hər hansı bir üzvü ən ağır cəza ilə cəzalandırılır. İnsanlar arasında yaranan gözəgörünməz qorxu və xof hissi Qalaadı mifikləşdirir. "Əhti-Ətiq"in ənənələrini zor gücünə bərpa edən hakimiyyət nəsilartırma qanununu zor gücünə tətbiq edir, qadına qarşı təcavüzü həyati qanunauyğunluq kimi təbliğ edir. Əsərdə qadına qarşı ən təhqiredici hadisələrə qanuni don geyindirilir və baş verənləri ənənəvi dini qaydalarla əsaslandırırlar. Qalaad cəmiyyətində qadınlar kastalara bölünür və hər kastanın

---

[26] Deer, G. The Handmaid's Tale: Dystopia and the Paradoxes of Power // Margaret Atwood's The Handmaid's Tale. / G.Deer. – Philadelphia: Chelsea House Publishers, – 2001. – p.93-112; McCarthym, M. The Handmaid's Tale // The NewYork Times, – 1986, – 9 February.

özünəməxsus funksiyası olur. Ən yüksək kasta komandorların arvadlarına ayrılan yerlərə məxsusdur. Kastada Marfaların mövcudluğu ailədə işçi qadınları əvəz edir, evin yemək tədarükünü yerinə yetirirlər. Onlar yalnız işçi kimi bu cəmiyyətə yararlıdır, insani keyfiyyətləri isə heç kimi maraqlandırmır. Qalaad cəmiyyətinin ən qorxulu üzvləri Baxıcılar hesab olunur. Onlar hamını güdür, aidiyyəti orqanlara "donos" verir, yeri gələndə isə üzə dururlar. Qalaad cəmiyyətinin qadınlarının ümid yeri səbr etmək, təmkinlə yaşamaq, yuxarı kastanın icra etdiyi qanunlara amiranə baş etməkdir. Qalaadının aşağı kastasına aid olan qadınların səbirli olması onların həyatda qalmasına yeganə vasitə kimi göstərilir.

***"Qulluqçunun hekayəsi"ndə simvolun "canlanan" təhkiyəsi – qadın ağrılarını danışan rənglər"*** adlanan paraqrafda rənglər personajların sosial statuslarını müəyyən edən simvol kimi müəyyən edilir. Belə ki, qara komandorun rəngi, mavi komandorun arvadının, qırmızı isə qulluqçuların rəngini bildirir. Yaşıl-bataqlıq rəngi Marfaların, qəhvəyi Xalaların, qara-qəhvəyi rəng isə mamaçaları simvolizə edir. Kastaya bölünən cəmiyyət simvolik olaraq rəng şəklində mövcuddur. Əgər qulluqçuların qırmızı rəngə boyanması onların doğa bilmək qabiliyyətini simvolizə edirsə, eyni zamanda da qan müharibələrin, yəni döyüşün də rəngi ola bilər. Digər tərəfdən çevriliş nəticəsində yaranan dövlət ana bətnində ölü doğulmuş uşağı da simvolizə edə bilər. Elə bununla bağlı əsərin sonu qeyri-müəyyən qalır və qırmızı –qulluqçu rəmzi uğrunda döyüşən dini radikallar sonda mahiyyət etibarı ilə Qalaad respublikası adı altında yalnız qulluqçu (qadın – Ə.Ə.) əldə edə bilir. Bu yanaşmada isə qırmızı rəng istehzanın, kinayənin rənginə çevrilir.

Qara rəng şər, fitnə fəsadın rəngi, xəyanətin və satqınlığın simvolu kimi əsər boyu Komandorun simasında canlanır. O, qara geyinir, "Yaqub oğulları" adlı təşkilatının üzvü kimi hakimiyyət çevrilişindən sonra dövlət orqanlarında yüksək vəzifə tutur və "qara" istəklərini həyata keçirir. Qara rəng onun kimliyinin, şəxsiyyətinin açılmasına yardımçı olur. Ağ ümid, inam və paklıq rəmzi kimi baş qəhrəmanın xatirələrində qızının simasında canlanır, öz uşaqlığı ilə qızı haqqında xatirələri çox vaxt bir-birinə qarışır, lakin hər iki halda ağ rəngli geyimdə təsvir edilir.

Yazıçı qadın ağrılarını "canlandıran" rəng assosiasiyası ilə öz fikirlərini dilə gətirir, hər bir rəngin məna çalarında qadın əzablarını təsvir etməyə nail olur.

***"Kor sui-qəsdçi" romanında qadın sosial stereotiplərin qurbanı kimi"*** adlanan sonuncu paraqrafda keçmişdə zəngin olan, sonralar isə müflisləşmiş ailə tarixçəsi ətrafında qurulan əsərin təhlilinə yer verilir. Yarı mifik, yarı real hadisələrin fonunda əslində yaşlı qadının baş tutmayan arzularının irreal görüntüləri canlanır. Maraqlıdır ki, kor sui-qəsdçi və onun lal sevgilisi haqqında fantastik hekayə naməlum planetdə baş verir. Kor və lal cütlüyün xoşbəxt yaşayışları yazıçının ideal axtarışları ilə səslənir. Digər süjet xətti gerçəklikdən gizlənən iki sevgilinin real aləmdən qaçışı, onları əhatə edən cəmiyyət qanunlarına açıq da olmasa, gizli şəkildə qarşı çıxan sevgi hekayəsidir. M.Etvudun yazıçı məharəti və bənzərsizliyi ondadır ki, cəmiyyətin yazılmamış qanunlarını, cəmiyyət stereotiplərinin qurbanı olan sevgi hekayəsini Kanadanın tarixi, onun gerçək keçmişi və bu gününü vəhdətdə verə bilir. Üçüncü süjet xətti isə yaşlı qadının təsvir etdiyi ailə faciəsidir. Bioqrafik romanı xatırladan bu hissə keçmiş və indi arasındakı xatirələrdə yaşayan, ahıl yaşında bəzən unutduğu, bəzən isə bilərəkdən hafizəsindən sildiyi hadisələrin yenidən nəql etməsi ilə bağlıdır. Yazıçı qoca qadının keçmişinin təsvirini gələcəyə ünvanlayır, cəmiyyət və toplumun diktəsində əziyyət çəkən qadının "həyatsızlığının" nə vaxtsa bitəcəyinə, sosial stereotiplərdən qurtulacağına ümid edir.

Müasir dünyanın dilmancı kimi çıxış edən mifik-fantastik dünya bütün qadınların acı taleyini əks edir. Mövcud cəmiyyət qanunları ilə yaşamağa məhkum olan, daha çox mənəvi və fiziki "qurbanlara" çevrilən qadınlar demək olar ki, hər biri sosial stereotiplərlə baş-başa yaşamışdı. Onlar məcburən istəmədikləri həyatı seçmiş, nəyin bahasına olursa olsun yaxşı "görünmək" oyununu oynamışlar. Nəticədə hər biri mənəvi-ruhi sarsıntılarla rastlaşmış, bəziləri isə ümumiyyətlə, onları adlaya bilməmiş və intihara əl atmışlar. Magik, mifoloji elementlərlə bol olan süjet xətlərindən biri də "Kor sui-qəsdçi" başlığı altında əslində iki bacının adından yazılan romandır. Roman içində yazılan qoşma romanın qəhrəmanları adsız qadın və kişidir. Təhkiyədən məlum olur ki, fantastik dünyanın sakinləri olan bu gənclərin yaşadığı şəhərin adətlərindən biri də tanrılara kəsilən

qurbanlar – gözəl qızlardır: "*Qızların boğazlarını kəsir, qan aramla axır, solan aya güc-qüvvə verir, bu da öz növbəsində onun solub tam yoxa çıxmasının qarşısını alırdı*"[27]. Göründüyü kimi, mifik süjetdə "qurban" kəsilən qızların cansız əşya kimi istifadəsindən söz açılır, lazımsız əşya kimi daha "böyük" işlər üçün "qurban" verirlər. Ayin vaxtı qurban səs çıxarmasın deyə onların dili kəsilir, beləliklə də, qurbanın könüllü olması fikrini təmin edirlər. Digər tərəfdən belə təsvir yazıçının cəmiyyət tərəfindən səsi kəsilən gerçək qadınlardan söz açmasına da işarədir.

"Kor sui-qəsdçi" romanında baş qəhrəmanın kiçik yaşlarından özünə qapanması, ətraf aləmdən təcrid olmasının yeganə səbəbi, özünü qoruma mexanizmi – şüursuzluq halında qalması ilə bağlıdır. Əsərdən məlum olur ki, o, çox vaxt başa düşülmür, ona "hamı kimi olmaq" nəsib olmur. Əslində qəhrəmanın özü üçün yaratdığı "görünməzlik" maskası onu həyatın acı üzündən qismən də olsa xilas olmağa, ətrafda baş verənlərə "bulaşmamağa" yardım edir. Digər tərəfdən hamı kimi deyil, "başqa" olmaq damğası onu daxili iztirablardan azad etmir, tənhalaşdıqca təkləşir və sonda sui-qəsdlə nəticələnən intihara sürükləyir. Böyük bacının gerçəklikdən qaçışı zəngin həyatın içində gizlənməklə baş tutursa, baş qəhrəman buna susmaqla nail olur. Gücü çatmayanda, artıq həyatla mübarizə apara bilməyəndə, ümidlərinin puç olduğu gün intihara əl atır.

Əsərin sonu yazıçının oxuculara ünvanlandığı müraciətlə – qadının öz azadlığını, kimliyini lal və susqun şəkildə deyil, onun uğrunda mübarizə aparması ilə baş tutacağı fikri ilə bitir.

Dissertasiya işinin **Nəticə** hissəsində aparılan araşdırmanın əsas elmi müddəa və qənaətlərini aşağıdakı kimi təqdim edirik:

– M.Etvudun uşaqlıq çağları – onun ailə mühiti, yaşadığı sosial-coğrafi landşaft, aldığı təhsil, yaxın çevrəsi onun yaradıcı kimliyində silinməz izlər qoymuşdur və bu izlər, onun yaradıcılığı boyu ayrı-ayrı əsərlərində ("Üzə çıxma", "Pişik gözü") öz əksini tapmışdır. Belə ki, M.Etvudun ekologiya problemlərinə həssaslığı və bunu öz yaradıcılığında əks etdirməsi entomoloq alim olan atasının həyat prioritetlərinin təsirindən qaynaqlanır. M.Etvudun feminist

[27] Atwood, M. The Blind Assassin. / M.Atwood. – Rosettabooks LLC, – 2003. – 54 p.

ideyalarının yaradıcı leytmotivinə yüksəlməsində anası əhəmiyyətli dərəcədə təsir etmişdir. M.Etvudun doğma xalası Coys Bərkhaus Kanadanın görkəmli uşaq yazıçılarındandır ki, bu fakt da M.Etvudun yaradıcı kimliyinin formalaşmasında önəmli yerlərdən birini tutur.

– M.Etvud bir feminist dəyərlər daşıyıcısı kimi, öz qadın qəhrəmanlarını "qurban" görmək istəmir. Onun əzilmiş, haqları əlindən alınmış, müəyyən məhrumiyyətlərə düçar olmuş qadın qəhrəmanının susqunluğu əksər hallarda anidən dirçəliş ərəfəsindəki güc toplama ("Üzə çıxma"), ya mənəvi kamilləşmə yolundakı "özünəqapanma" və daxili hesabat ("Pişik gözü"), ya da qisas öncəsi ("Ləqəbi Qreys") müvəqqəti şaşqınlıqdır. Bir sözlə, M.Etvudun qadın qəhrəmanları əksər hallarda zəifliyə, acizliyə təkəbbürlə baxırlar; hətta özlərini belə durumda qəti şəkildə qəbul etmədən qurban olmaqdan qaçırlar.

– M.Etvudun əsərlərində və ümumilikdə, yaradıcı kimliyində nəzərə çarpan müəyyən ikilik, təzadlılıq yazıçının özünün də "Susanna Mudinin jurnalları" əsərində etiraf etdiyi kimi, Kanada identikliyinin "paranoidal şizofrenliyi"nin davamı kimi meydana çıxır. M.Etvud "Susanna Mudinin jurnalları" və "Üzə çıxma" əsərlərində Kanada identikliyi problemini çözməyə çalışır və bu ikili identiklik məqamının qadın psixologiyasındakı fəsadlı izlərini tam obyektivliklə dəyərləndirir.

– M.Etvudun "Ləqəbi Qreys" romanı real tarixi hadisələrin fərdi interpretasiyasına əsaslanan fantastik detektiv kimi ərsəyə gəlsə də, cəmiyyətin real sosial problemlərinə olduğu kimi ayna tutur. Əsərin baş qəhrəmanın törədilən qətl hadisəsindəki iştirak səviyyəsinin müəyyənləşdirilməsinə yönəlik psixoloji araşdırmalar Qreys Marksın psixoloji portretinin cızılmasına, onun qurban mövqeli qadınlara nifrət etdiyi ortaya çıxır.

– M.Etvudun antiutopiyalarında təsvir edilən hadisələrin gerçəklikdə reallaşması ona haqlı olaraq, "Utopiyanın peyğəmbəri" statusunu qazandırmışdır ki, bu da ilk növbədə onun əsərlərində əks olunan gender problemlərinin ekoloji fəlakətlərin zamanla tarixi faktlar kimi ortaya çıxması ilə şərtlənir.

– Məlum olur ki, M.Etvud öz antiutopiyalarının janr aidliyi məsələsində bir çox həmkarları ilə fikir polemikasına girmiş və

fəaliyyət göstərdiyi janrın “science fiction”dan çox uzaq olan “speculative fiction” janrı kimi fərqləndirilməsində israrlı mövqe nümayiş etdirmişdir. M.Etvud elmi fantastikanın reallığa çevrilə bilmədiyini, “speculative fiction”un isə reallaşa biləcək yaxın gələcəyi əks etdirdiyini önə çəkmişdir. M.Etvud “Ürək sonda gedir” antiutopiyasında “beyinyuma” texnologiyaları və digər manipulyasiya mexanizmləri sayəsində bəşəriyyəti gözləyən təhlükələrlə bağlı öz ciddi xəbərdarlığını vermişdir.

– M.Etvudun “Oriks və Kreyk” antiutopiyasının təhlili onu deməyə əsas verir ki, təbiətin real, təbii inkişaf dinamikasının idarə edilməsi, insanlığın süni şəkildə “saflaşdırılması” ilə seleksiyası ağır fəsadlara yol aça bilər. Müəllif onu ortaya qoyur ki, bu süni müdaxilə süni İlahi Ədalət missiyasının yüklənməsi ilk növbədə, həmin “Allahlıq” iddiasında olan şəxsi məhv edir və daha sonra isə gözlənilən balansın tam əksinə, bəşəriyyətə harmoniya pozulması gətirir.

– M.Etvud “Daşqın ili” antiutopiyasında gen mühəndisliyi yolu ilə insan “irqinin saflaşdırılması” ideyasının nüvədən “ölü doğulduğunu” sübuta yetirir. Müəllif hətta ən “uğurlu” seleksiyanın, yəni süni utopiyanın, mahiyyət etibarilə antiutopiyaya “hamilə” olduğunu, gec-tez böhrana uğrayacağını birmənalı şəkildə sübut edir.

– M.Etvudun “Oriks və Kreyk” antiutopiyasının təhlili onu deməyə əsas verir ki, istənilən süni ideallaşdırma, təbii xeyir-şər mübarizəsindən kənarda gerçəkləşən istənilən növ seleksiya öz nəticəsində qüsurludur: steril “insan”ın cənnətlik iddiası onun bilavasitə sünilik törəməsi kimi mümkünsüzdür. Süni utopiya ən yaxşı halda yarımçıq, natamam, arzuların gerçəkləşdirilməsinə imkan verməyən utopiyadır, yəni, əslində antiutopiyadır.

– “Qulluqçunun hekayəsi” antiutopiyasında yazıçı canlandırdığı antiutopiya timsalında, totalitar cəmiyyətdə qadına əşya, mülkiyyət, əmtəə kimi baxıldığını ifşa edir, onların (qadınların) sadəcə olaraq, maskulin qanunlara tabe olan toplumun müəyyən tələbat və ehtiyaclarının ödənilməsi üçün istifadə olunması dəhşətini açıqlayır, qadın hüquqlarının alçaldılması, onların hüquqlarının məhdudlaşdırılması kimi dəyərləndirir.

– M.Etvudun “Kor sui-qəsdçi” romanında allüzial fon olaraq müraciət etdiyi mifdəki “lal qadınlarla”, yəni, əslində dilləri kəsilərək etiraz etmək imkanından məhrum edilmiş aciz qadınlarla apardığı paralellər təsadüfi deyil. M.Etvud əbədi susqunluğa məhkum olunmuş həmin qadınların durumunun cəmiyyətin şərtilikləri tələbiylə seçim hüquqları əlindən alınaraq “qurban olmağa” məhkum edilmiş qadınların faciəvi bənzərliyinin əyaniliyini ortaya qoyur.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:**


1. Marqaret Etvudun “Qulluqçunun hekayəsi” romanında gender bərabərsizliyi və qadın azadlığı problem // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. № 20, – s.302-308.
2. Marqaret Etvudun “Pişik gözü” romanı feminist ideyaların inikası kimi //– Bakı: BDU, Dil və ədəbiyyat (nəzəri, elmi, metodik jurnal), – 2018. №1(109), – s.226-228.
3. Dystopia in Margaret Atwood’s creativity as a warning man kind of forth coming disaster // – Ukraine, Virtus scientific journal, – 2019. April Issue, №33, – p. 139-145.
4. Marqaret Etvudun “Üzə çıxma” romanında qadın mübarizliyinin arxitektonikası // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019. № 5, – s. 338-345.
5. Marqaret Etvudun “Ləqəbi Qreys” romanında gender bərabərsizliyindən doğan problemlər (köhnə tarixçənin yeni təhkiyəsi) // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. №1, – s. 168-172.
6. Marqaret Etvudun “Ləqəbi Qreys” romanına bir baxış (feminist problemi müstəvisində) // “Gənc tədqiqatçıların II respublika elmi-praktik konfransı”, Azərbaycan Universiteti. – Bakı: – 2019, – s. 90-92.
7. К вопросу о генезисе идей феминизма в творчестве М. Этвуд // – Scientific and practical Conference “Social and Economic Aspects of Educationin Modern Society”. – Warsaw: Poland, – 25 December, – 2019, – p. 18-20.

8. Marqaret Etvudun “Kor sui-qəsdçi” romanında qadın sosial stereotiplərin qurbanı kimi // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2020. №1, – s.74-78.
9. Qadın ağrılarını danışan rənglər (Marqaret Etvudun “Qulluqçunun hekayəsi” romanı əsasında) // – Bakı: Azərbaycan Universiteti, “İpək Yolu” jurnalı, – 2020. №2, – s.144-151.
10. Marqaret Etvudun roman antiutopiyasında yeni dünya modeli // – Bakı: BDU, Dil və ədəbiyyat (nəzəri, elmi, metodik jurnal), – 2020. №1(113), – s. 281-284.
11. Marqaret Etvud yaradıcılığında qadın identikliyi problemi // International Conference on Gender problems & Modern Azerbaijan. – Baku: – November 27, – 2020, – p. 25-27.
12. On the specificity of Margaret Atwood’s dystopia // – Science and society – Methods and problems of practical application. Proceedings of the 9th International conference. Accent Graphics Communications & Publishing. – Vancouver, Canada. – 15 February, – 2020, – p. 40-44.

Dissertasiyanın müdafiəsi 08 iyun 2023-cü il tarixində saat 12⁰⁰ Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 may 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.05.2023

Kağızın formatı: 60x84 1/16

Həcm: 46 268 işarə

Tiraj: 100